MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVII edition, Baku, 2025

# TƏSVİRİ SƏNƏT

**UOT 730**
https://orcid.org/0009-0007-9147-260X
https://doi.org/10.52094/2221-7584.2025.47.0188

**Samirə Məmmədova Mahir qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin doktorantı**
**E-mail:** samiramamedova04@mail.ru

## MÜASİR AZƏRBƏYCAN DƏZGAH HEYKƏLTƏRAŞLIĞINDA ESXATOLOGİYA TEMATİKASI

**Xülasə:** Təsviri sənətdə mücərrəd anlayışlar yaradıcının təxəyyülü və icra texnikasından asılıdır. Mücərrəd anlayışlı mövzulu sənət əsərləri yaradılarkən, rəssam və heykəltəraşın özünün fərdi baxışı və təsəvvürü ön plana çıxır, bu da hər bir əsərin özünəməxsusluğunu müəyyən edir. Hazırkı məqalədə isə Azərbaycan heykəltəraşlığında mühüm yer tutan bir sıra əsərlər təhlil edilib. Məqalədə Zeynalabdin İsgəndərovun “Ölüm”, Fuad Salayevin “Qıl körpüsü” və “Son. Cənnətə qapı” adlı əsərləri araşdırılaraq, bu əsərlərin bədii həlli və onlarda istifadə edilən simvolizm təhlil olunmuşdur. Əsərlərin Azərbaycan heykəltəraşlığındakı rolu və təsiri, həmçinin bu əsərlərin sənət tarixindəki əhəmiyyəti müzakirə edilir.
**Açar sözlər:** esxatologiya, axirət, cəhənnəm, plastika, heykəltəraşlıq

Heykəltəraşlıq, təsviri sənətin digər növlərindən fərqli olaraq, yaradıcıya nisbətən məhdud imkanlar təqdim edən bir sənət növüdür. Çünki heykəl, statik bir obyekt olaraq, məhdud bir mühitdə, zaman və məkan baxımından sərhədlənmiş şəkildə emosiyalar və düşüncələr yaratmağa çalışır. Bu sənət, yalnız bədii estetikaya deyil, həm də fiziki mühitlə əlaqəyə əsaslanan məna və hisslərə dayanır. Təsviri sənətdə, məsələn, boyakarlıq və ya qrafikada səth üzərindəki rəng və formaların oyunları ilə anlaşılan təsir yaratmaq imkanları genişdir. Lakin heykəltəraşlıqda, materialın təbiəti və fiziki məhdudiyyətlər, bədii və ideya təhvilinin daha mürəkkəb və dolğun bir şəkildə reallaşmasını tələb edir. Xüsusilə də mövzu bəşəriyyətin son taleyi, ölüm, cənnət, cəhənnəm, bir sözlə – esxatologiya kimi çox dərin fəlsəfi və metafizik anlayışlar olarsa –

sənətkarın yalnız texniki bacarığı deyil, həm də güclü bir emosional zəka, təxəyyül və fəlsəfi düşüncə qabiliyyəti ilə bu çətin mövzunu izləyiciyə çatdırmaq mümkün ola bilər.

Bəşəriyyətin gələcəyi, həyatın və ölümün təbiəti barədə dərin düşüncələr tarix boyunca insan təfəkkürünün əsas istiqamətlərindən biri olmuşdur. Bu cür suallara cavab axtarmaq fərdi olmaqdan çıxaraq ümumbəşəri bir məsələyə çevrilmiş və sənətkarlar da bu mövzulara öz əsərlərində tez-tez müraciət etmişlər. Lakin heykəltəraşlıq, özünün məhdudiyyətləri ilə bu mövzuların təcəssümündə daha mürəkkəb bir vəzifə qarşısında dayanır. Hətta ən təcrübəli sənətkarlar üçün belə, bu məqsədin reallaşdırılması böyük bir bədii cəsarət, texniki bacarıq və fəlsəfi düşüncə tələb edir. Bu cür mücərrət mövzuların sənətdə, xüsusilə də heykəltəraşlıqda təcəssümü, nəinki ideyanın realizasiyası, həm də izləyicinin bu ideya ilə ünsiyyətdə olmasını təmin edən bir vasitə olaraq çıxış edir. Bu baxımdan, bu mövzuların heykəltəraşlıqda işlənməsi həm nəzəri, həm də praktiki cəhətdən çoxsaylı çətinliklər və suallar doğurur. Məsələn, ölüm kimi mövzu ilə əlaqəli olaraq, sənətkar necə bir mövzuya müraciət etməli və bunu necə formalaşdırmalıdır ki, həmin mövzu izləyicini düşündürsün, həm də onun emosional dünyasına təsir etsin? Əslində, heykəltəraşın bu çətinlikləri aşması, əsərinin yalnız estetik qiymətini deyil, həm də metafizik və fəlsəfi dərinliyini ortaya qoyur.

Yuxarıda deyilən mücərrət mövzuların heykəltəraşlıqdakı çətinliklərinə baxmayaraq müasir dövr Azərbaycan heykəltəraşlığında bu cür mövzulara rast gəlmək mümkündür. Bunun üçün bəzi mühüm nümunələrə diqqət yetirmək lazımdır. Məsələn, Fuad Salayevin “Qıl körpüsü” və “Son. Cənnətə qapı” adlı əsərləri, Zeynalabdin İsgəndərovun “Ölüm” adlı heykəli esxatologiya mövzusuna aid ən yaxşı nümunələrdən sayılır. Hər üç əsər, yalnız estetik və texniki cəhətdən deyil, həm də insan mövcudiyyəti ilə bağlı dərin düşüncələri təqdim edir. Zeynalabdin İsgəndərovun “Ölüm” əsəri, ölümün simvolik təcəssümü olaraq, insanın sonsuzluğa olan marağını və qorxusunu əks etdirir. Fuad Salayevin “Qıl körpüsü” və “Son. Cənnətə qapı” əsərləri isə insanın həyatdakı keçici anlarını və ölümdən sonrakı səyahətini rəmzlərlə təqdim edir.

Bu əsərlər, yalnız bədii və texniki baxımdan deyil, həm də onların fəlsəfi yükü ilə Azərbaycan heykəltəraşlığında yeni bir mərhələnin təcəssümüdür.

Bu heykəllərin təhlili, yalnız onların bədii dəyərini deyil, həm də onların fəlsəfi və metafizik məzmununu daha dərindən anlamağa imkan verir. Beləliklə, bu əsərlər Azərbaycan heykəltəraşlığının inkişafını, sənətin təkcə gözəllik deyil, həm də ideya və duyğuların ifadəsi olduğunu nümayiş etdirir. Bu baxımdan, əsərlərin təhlili Azərbaycan heykəltəraşlığının inkişafı və mədəniyyətimizə verdiyi töhfələr barədə daha geniş baxış formalaşdırmağa kömək edir.

Esxatoloji mövzulu dəzgah heykəltəraşlığının nümunələrindən Fuad Salayevin "Qıl Körpüsü"nü (1994) qeyd etmək lazımdır. Ümumiyyətlə Salayev istənilən mövzuya öz toxunuşları ilə xüsusi məna verməyi bacaran sənətkardır. Sənətşünaslıq üzrə fəlsəfə doktoru Emin Ələkbərov özünün sənətşünaslıq üzrə fəlsəfə doktoru dissertasiyasında qeyd edir ki, *"Hər bir sənətkarın öz dəsti xətti, düşüncə tərzi onun əsərlərində də özünü büruzə verir və Fuad Salayev də heykəltəraşlıq sahəsində özünəməxsus xüsusiyyətləri ilə seçilən heykəltəraşdır. Fuad Salayevin hər bir işinin respublika və xarici sərgilərdə uğur qazanması sənətkarın heykəltəraşlıq məkanında özünəməxsus dəsti-xəttə malik olmasının, yaradıcı bir sənətkarın, yeni və fərqli əsərlər müəllifinin mövcudluğunun geniş miqyasda, həm ölkə daxilində, həm də ölkə xaricində təsdiqidir"* [1; 12-13]. Esxatoloji mövzulu "Qıl körpüsü" adlı bu əsər Azərbaycanın müasir incəsənətində önəmli yeri olan, dərin fəlsəfi məna daşıyan konseptual kompozisiyalardan biridir. "Qıl körpüsü" ifadəsi İslam mədəniyyətində tez-tez rast gəlinən metaforalardandır. Bu ifadə, xüsusilə, hədislərin təsvir etdiyi mənəvi bir sınağı, insanların axirətdə cənnət və cəhənnəm arasındakı körpüdən keçməsini təsvir edir. Bu körpü incə bir qıl qədər nazik və iti olduğu üçün yalnız düzgün yolda olanlar və günahdan uzaq duranlar keçə bilər. Fuad Salayev bu dini-simvolik anlayışı müasir incəsənət kontekstinə gətirərək onu daha geniş, universal mənalarla zənginləşdirir. Heykəl sadəcə dini motivlərlə məhdudlaşmır, eyni zamanda fərdi və cəmiyyətin həyatına dair daha geniş bir metafora təqdim edir. Fuad Salayevin "Qıl Körpüsü" əsəri həm də insanın daxili mübarizəsi, əxlaq prinsipləri və həyatda qərarların nəticələrinə dair bir düşüncə formasıdır. Körpüdən keçmək hər bir insanın həyatında qarşılaşdığı çətin qərarları və

mənəvi balansı simvollaşdırır. Buna görə kompozsiyada ayrı-ayrı fədlərə nəzər saldıqda hərəsinin bir pozada təsvir olunduğunu görürük. Biri sonluğun gözünə dik baxaraq getdiyi halda, digəri utanaraq başını aşağı salır, bir başqası geriyə dönməklə sanki dönüb həyatdakı əməllərinə düzəliş etmək istəyir. Bundan başqa kompozisiyada müxtəlif personajların olması körpünün yalnız fərdi deyil, kollektiv şəkildə insanların ortaq dəyərlər üzərində balans qurmağa çalışdığı bir cəmiyyəti də əks etdirir.

Ümumi olaraq Fuad Salayevin "Qıl Körpüsü" əsəri həm forma, həm də məna baxımından Azərbaycan müasir incəsənətində çoxşaxəli bir simvolik dəyərə malikdir. O, tamaşaçını həm öz daxili dünyasını, həm də insan cəmiyyətinin vəziyyətini düşünməyə vadar edir. Bu əsər insanın mənəvi yolunu əks etdirən güzgü rolunu oynayır və hər kəsi öz "qıl körpüsü" ilə üzləşməyə çağırır.

Fuad Salayevin yaradıcılığında esxatologiya tematikası təkcə "Qıl körpüsü" ilə yekunlaşmır. Onun "Son. Cənnətə Qapı" əsəri də bu mövzulu kompozisiyalarındandır. Bu əsərin Azərbaycan heykəltəraşlığındakı əhəmiyyəti aldığı mükafatla təsdiqini tapır. "*Fuad Salayev yaratdığı qiymətli əsərlərinə görə 1993–cü ildə Tokio şəhərində İtalyan pavilyonunda keçirilən XVII Ümumdünya rəssamlarının sərgisində nümayiş olunan "Son.Cənnət qapısı" adlı əsərinə görə Beynəlxalq diploma layiq görülüb"* [1; 11]. O həm fəlsəfi, həm də simvolik baxımdan dərin məzmun daşıyan bir heykəltəraşlıq əsəridir. Bu əsər həyat, ölüm, axirət və mənəvi axtarışların konseptual təsviri kimi qəbul edilir. Əsərin adı və forması, eləcə də onun təqdimat tərzi tamaşaçıya geniş düşüncə sahələri açır. Əsəri şərh edərkən ilk növbədə onun adına və ifadə formasına nəzər salmaq lazımdır. Bu kompozisiyada yuxarıya doğru dik duran pilləkənin sonunda dayanan adam fiqurunu görürük. Pillələrin ara məsafəsinin eyni olmaması həyat yollarının çətinlik səviyyəsini simvolizə edir. Adam fiqurunun aşağıya doğru boylanmasını sanki ömür hekayəsinə son dəfə nəzər salması kimi qiymətləndirmək olar. Bu baxışlar insanın hansı çətinliklərdən çıxıb, cənnətə doğru yüksələ bilməsi və son mənzilə getməzdən öncə bir daha dünyəvi həyata nəzər yetirməsi anlamına gələ bilər. Sənətşünaslıq üzrə fəlsəfə doktoru Emin Ələkbərov bu əsəri təhlil edərkən belə qənaətə gəlmişdir: *"Kompozisiya*

*baxımından "Son. "Cənnət qapısı" böyük marağa səbəb olan əsərdir. Bu əsərdə təsvir olunan hündür pilləkən yuxarı qalxdıqca incə və daralır. Pilləkənin dibinə bərkidilmiş iki ox onun dəstəyini təşkil edir və nərdivanın yuxarı hissəsində qabağa əyilmiş qocanın təsviri indiki və gələcək dünyalar arasında olan insanı təmsil edir. Heykəltəraşın "sərhədi", bu dünyadan o dünyaya "keçid"i əks etdirən əsərləri dərin mənalarla doludur"* [4; 5]. Bundan başqa digər bir elmi məqaləsində bu kompazisiyanı belə təhlil etmişdi: *Fuad Salayevin "Son. Cənnət qapıları" kompozisiyası plastik formanın konvensionallığının daha da gücləndiyini nümayiş etdirir. Burada tamaşaçıya ömrünün sonuna çatmış bir insan təqdim olunur. İnsanın mənəvi yüksəlişini simvolizə edən pilləkən və "varlığı" "yoxluqdan" ayıran son pillədən əvvəl bir anlıq donmuş insan fiquru real yozumdan çox uzaqdır. Kompozisiya həm məzmunca, həm də plastik həll baxımından son dərəcə simvolikdir. Buradakı pilləkən çox şərti olaraq pilləkən adlandırıla bilər və insan fiquru isə çətin müəyyən edilə bilən siluetdən ibarətdir"* [3; 128]. "Son. Cənnətə Qapı" əsəri insanın həyatı və ölümü barədə ən fundamental sualları incəsənət vasitəsilə araşdıran, güclü bir metafora və simvol olaraq çıxış edir. Bu heykəl həm milli mədəniyyətin dini dəyərlərini, həm də bəşəriyyətin mənəvi axtarışlarını tərənnüm edir.

Azərbaycan incəsənətində müasir dövr heykəltəraşı, çoxsaylı mükafatlara, o cümlədən Azərbaycanın əməkdar artisti adına layiq görülən, gərgin emosional reaksiyalar doğuran heykəlləri ilə tanınan Zeynalabdin İsgəndərov realizm elementlərini abstraksiya ilə birləşdirən üslubdan istifadə edərək əsərlərində izləyiciləri ölüm, mənəviyyat və şəxsiyyət kimi universal mövzular üzərində düşünməyə dəvət edir. O, yaradıcılığında dərin mövzuları açmağa, izləyicilərini mənəvi dəyərlərə fikir verməyə səsləyib. Stilistik seçim baxımından İsgəndərov öz yaradıcılığında dramatik formalardan və emosional təsiri artırmaq üçün işıq və kölgənin oyunundan məharətlə istifadə edib. O, "Ölüm" adlı heykəlində də bu ənənəni davam etmişdir. Elə əsərin adının özü ölüm mövzusunun birbaşa araşdırılmasına işarə edir. Heykəlin insan fiqurunda və önə doğru əyilən pozada verilməsi bir tərəfdən ölümün bəşəriyyət qarşsında günahkar olduğu hissini yaradırsa, digər tərəfdən fiqurun sərtliyi onun həm qorxulu, həm də qaçılmaz təbiətini ifadə edir. O, bu əsəri ilə ölümü təkcə faciəli

sonluq kimi deyil, həm də insan varlığının zəruri mərhələsi, bəlkə də daha dərin və naməlum bir yerə, varlığa keçid kimi ifadə etmişdir. Yəqin ki, buna görə heykəlin üzünü boş saxlayıb. Kölgənin düşməsilə ölümün qaranlıq, bizə məlum olmayan tərəfini vurğulamağa çalışıb. Heykəldə boşluq elementləri həyatın kövrəkliyini və ölümün qaçılmazlığını simvollaşdırır. Səthin nahamarlığı isə ölümün emosional təsirini əks etdirir.

Ümumiyyətlə, Zeynalabdin İsgəndərovun üslubu, bir qayda olaraq, realizm və abstraksiya sintezi ilə xarakterizə olunur ki, bu da hər bir tamaşaçıya əsərin mənasını özünəməxsus şəkildə şərh etməyə imkan verir. İsgəndərov boş və massiv formalar arasında kəskin kontrastlar və ya növbələşən hamar və kobud fakturalar kimi bədii vasitələrdən istifadə edir. Onun bu üslubunu nəzərə alsaq, bu əsərlə həyatdan ölümə keçid ideyası ilə əlaqəli olan gərginliyi və dramı vizual olaraq vurğuladığını deyə bilərik. Ölüm heykəlinin emosional təsiri onun mövzusunun universallığı ilə gücləndirilə bilər. Heykəl bir tərəfdən naməlumluq qorxusunu oyadır, digər tərəfdən də ölümün bir keçid olaraq varlığın və mədəni irsin qaçılmaz bir parçası olduğunu göstərir. Bu, onun digər əsərləri, məsələn, xatirə abidələri üçün də xarakterikdir. Güman etmək olar ki, İsgəndərovun yaradıcılığında ölüm obrazının özü simvolik və metaforikdir. Heykəltəraşın mücərrəd formalara üstünlük verməsi tamaşaçının təfsiri üçün yer buraxır. Sənətşünas Hökumə Səfərli Ağasoy sənətşünaslıq üzrə fəlsəfə doktoru dissertasiyasında qeyd etdiyi kimi, "*Əsasən plastik həllin reallığına və yapma manerasının yumşaqlığına üstünlük verən heykəltəraş, elə əsərlərinin tamaşaçı rəğbəti qazanmasını da bu inandırıcılıq və icra səmimiliyi ilə əldə etmişdir*" [ 2; 12].

Yekun olaraq demək olar ki, müasir dövrdə inkişaf etməkdə olan Azərbaycan təsviri sənətində, o cümlədən dəzgah heykəltəraşlığında, həm mövzu, həm janr, həm də stilistika baxımından böyük bir inkişaf və müxtəliflik müşahidə olunur. Bu inkişaf, yalnız sənətin texniki cəhətləri ilə bağlı deyil, həm də sənətkarların ideya və yaradıcılıq dünyalarının zənginliyi ilə əlaqədardır. Bu gün Azərbaycan heykəltəraşlığı, müxtəlif dövrlər və mədəni təsirlər arasında bir körpü rolunu oynayır və yerli ənənələrlə yanaşı, müasir bəşəri düşüncələr və fəlsəfi yanaşmalarla da zənginləşir. Müxtəlif heykəltəraşların yaratdığı

nümunələr arasında ən sadə, gündəlik həyatı və insanları təsvir edən əsərlərdən tutmuş, daha dərin fəlsəfi və metafizik mənalar daşıyan, bəşəriyyətin taleyinə dair ideyalar ortaya qoyan əsərlərə qədər geniş bir spektr müşahidə olunur. Bu, Azərbaycan heykəltəraşlığının həm milli, həm də beynəlxalq səviyyədə zənginləşdiyini və bu sahədə yeni yolların açıldığını göstərir. Xüsusilə, son dövrlərdə, esxatologiya kimi çox dərin və mürəkkəb mövzuların Azərbaycan heykəltəraşlarının yaradıcılığında yer alması, bu sənət növünün inkişafında əhəmiyyətli bir addım olaraq qiymətləndirilə bilər. Esxatologiya, insanın həyat və ölüm mövzusuna dair tarixi və müasir baxışları, varlığın mövcudiyyəti və sonsuzluq məsələlərinə dair düşüncələri əks etdirən bir anlayışdır. Bu, yalnız dini və metafizik bir mövzu olmaqla qalmır. Onu fəlsəfi, mədəni və bəşəriyyətə dair geniş düşüncə sahəsinə də aid etmək olar. Müasir Azərbaycan heykəltəraşları, bu dərin ideyanı öz əsərlərində fərqli formalarda təqdim edərək, izləyicini düşündürməyə, emosional və intelektual olaraq təhrik etməyə cəhd edirlər.

Esxatologiya, müasir dövr Azərbaycan heykəltəraşlarının yaradıcılığında yalnız bir mövzu deyil, həm də onların fəlsəfi və mənəvi düşüncə tərzini ifadə etmələrinin bir yolu olaraq çıxış edir. Bu əsərlər, gözəl və estetik təsvirlər yaratmaq məqsədini daşımaqla yanaşı, həm də həyatın mənası, ölümün təbiəti və bəşəriyyətin axirət taleyi barədə dərin düşüncələri gündəmə gətirir. Bu baxımdan, heykəltəraşlıq əsərlərinin təkcə estetik qiyməti deyil, həm də onların ideya yükü, sənətin əsl qüdrətini ortaya qoyur. Müxtəlif heykəltəraşların bu mövzularda yaratdıqları əsərlər, cəmiyyətin kollektiv şüurunun və mədəniyyətinin dərinliklərinə enməyi və bu dərinliklərdən yeni mənalar çıxarmağı bacarır.

Beləliklə, Azərbaycan heykəltəraşlığında esxatologiya mövzusunun işlənməsi, yalnız bədii və fəlsəfi sahədə deyil, həm də mədəniyyətin bir parçası olaraq, insanın mövcudiyyətinə və ölümə dair düşüncələrini əks etdirən mühüm bir prosesdir. Bu mövzu ilə bağlı yaradılan əsərlər, yalnız müasir dövrün sənətini deyil, həm də Azərbaycan mədəniyyətinin inkişafını, onun universallığını və zamansızlığını nümayiş etdirir. Esxatologiyanın Azərbaycan heykəltəraşlığında yer alması, eyni zamanda sənətin yalnız bir özünüifadə forması olmadığını, həm

də cəmiyyətin dəyərlərini, ideallarını və mövcudluq anlayışlarını təhlil etməyin bir yolu olduğunu göstərir. Müasir Azərbaycan heykəltəraşları bu cür dərin mövzuları işləməklə, bir tərəfdən sənətin ənənələrini yaşadır, digər tərəfdən də onları yeni fəlsəfi və estetik yönlərdə inkişaf etdirir və müasir dövrün tələblərinə uyğun olaraq, bəşəriyyətin böyük suallarına cavab axtarır. Bu mənada, Azərbaycan heykəltəraşlığının gələcəyi, əsrlər boyu formalaşmış ənənələrin və müasir düşüncə tərzlərinin harmoniya içində birləşdiyi bir sahə olacaqdır.

***Fuad Salayev. Qıl körpüsü.  1994. Tunc, 37x67x10 sm***



*Zeynalabdin İsgəndərov. Ölüm.*
*2002. Tunc*



*Fuad Salayev. Son. Cənnətə qapı.*
*1994. Tunc. 28x36x18*



## Ədəbiyyat siyahısı

1. Ələkbərov, E. Heykəltəraş Fuad Salayevin yaradıcılığı: / Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı – Bakı: 2016.
2. Səfərli Ağasoy H. Müstəqillik dövründə Azərbaycanın dəzgah heykəltəraşlığı: / Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı – Bakı: 2016.
3. Алекперов Э. Соотношения «содержания» и «формы» в творчестве Азербайджанского скульптора Фуада Салаева / Empirický a aplikovaný výzkum – Paradigmata poznání. 4. 2016.

4. Алекперов Э. Философские образы в творчестве Фуада Салаева / Literature and art of the new century: the transformation process and the continuity of traditions Materials of the international scientific conference on January 20-21, 2016 – Prague 2016.

**Самира Махир кызы Мамедова**

## Эсхатологическая тема в современной азербайджанской скульптуре

**Резюме**

Статья посвящена важной теме эсхатологии в творчестве современных азербайджанских скульпторов, которая, несмотря на свою значимость, представлена в их работах в относительно ограниченном объеме. Богатый художественный ландшафт современной пластики формируется благодаря произведениям множества талантливых мастеров, каждый из которых привносит в свои работы уникальные смыслы, содержание и сюжеты. Цель данного исследования заключается в глубоком анализе произведений, которые затрагивают эсхатологические темы, рассматриваемые в контексте азербайджанской скульптуры. В рамках исследования изучается художественно-эстетические особенности таких пластических образцов, как «Смерть» Зейналабдина Искендерова, «Судный день» и «Конец. Врата в рай» Фуада Салаева. Эти работы проанализированы с точки зрения их концептуального содержания, формальных характеристик и эмоционального воздействия на зрителя, что позволит лучше понять, как современные скульпторы интерпретируют вечные вопросы жизни и смерти, а также судьбы человечества.

**Ключевые слова:** эсхатология, конец света, рай, пластика, скульптура

**Samira Mammadova Mahir**

## The Theme of Eschatology in Contemporary Azerbaijani Sculpture

The article is dedicated to the important theme of eschatology in the works of contemporary Azerbaijani sculptors, which, despite its significance, is represented in their works in a relatively limited volume. The rich artistic

landscape of modern sculpture is shaped by the creations of many talented masters, each of whom brings unique meanings, content, and narratives to their works. The aim of this study is to conduct a deep analysis of works that touch upon eschatological themes, examined within the context of Azerbaijani sculpture. The research focuses on the artistic and aesthetic features of such plastic samples as “Death” by Zeynalabdin Iskenderov and “Judgment Day” and “The End. Gates to Paradise” by Fuad Salayev. These works are analyzed in terms of their conceptual content, formal characteristics, and emotional impact on the viewer, allowing for a better understanding of how contemporary sculptors interpret eternal questions of life and death, as well as the fate of humanity.

**Key words:** eschatology, hereafter, heaven, sculpture, plasticity

***Məqalələrin redaksiyaya daxilolma tarixi: 28.01.2025***
***Məqalənin çapa qəbul olunma tarixi: 03.02.2025***
***Ekspert rəyi: Aslan Xəlilov***